Azərbaycan dili (tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı modelinə uyğun) fənni üzrə nəşr edilmiş "20 variant sınaq imtahanı" kitabında "Vurğu" bölməsinə aid tapşırıqlar növbəti tirajlarda bu tapşırıqlarla əvəz edilib:

| | **İlkin tirajda verilib:** | **Növbəti tirajlarda əvəz edilib:** |
|---|---|---|
| 1. Sınaq imtahanı №1 (Mövzu: Fonetika) (səhifə 3) | **1.** Vurğusu dəyişməklə mənası dəyişən sözü müəyyən edin.<br>A) kompaniya B) bəzək C) saxta<br>D) deviz E) satirik | **1.** Deyiliş və yazılış baxımından fərqli sözü müəyyən edin.<br>A) kompaniya B) bəzək C) saxta<br>D) qayınata E) satirik |
| | **2.** Vurğuya görə məntiqi ardıcıllığı tamamlayın.<br>1. diaspor 2. diktator<br>3. dilemma 4. ...<br>A) dialoq B) dialekt C) dilavər<br>D) diplomatiya E) didaktika | **2.** ***Yanlış*** fikirləri müəyyən edin.<br>*Atlaz* sözünün son səsi özünün kar qarşılığı ilə əvəz edilərsə, ...<br>1. *Parça* mənasında işlənər.<br>2. Deyilişi yazılışından fərqlənən söz olar.<br>3. Tərkibindəki cingiltili samitlərin sayı əvvəlki sözdən fərqlənər.<br>4. Yeni qrammatik mənası fərqli olar.<br>5. Leksik mənası fərqlənər.<br>A) 1, 3, 4 B) 2, 5 C) 2, 3, 4 D) 3, 5 E) 1, 2, 4 |
| | **3.** Vurğuya görə məntiqi ardıcıllığı davam etdirən sözü müəyyən edin.<br>1. imic 2. ilğım<br>3. iaşə 4. ...<br>A) icarə B) iflas C) ianə<br>D) iqamətgah E) indeks | **3.** Deyiliş və yazılış baxımından digərlərindən fərqlənən sözü müəyyən edin.<br>A) aşpaz B) atletika C) aşiqanə<br>D) atüstü E) avantüra |
| 2. Sınaq imtahanı №13 (Ümumi sınaq) (səhifə 76) | **6.** *"Şokolad"* sözünün fonetik təhlili ilə bağlı doğru fikirləri müəyyən edin.<br>1. Tərkibində dodaqlanan sait yoxdur.<br>2. İki samitin qarşılığı yoxdur.<br>3. Dodaqlanan sait qalın və açıqdır.<br>4. Sözdə *d* samitinin kar qarşılığı işlənmişdir.<br>5. Vurğu üçüncü hecaya düşür.<br>A) 1, 2, 3 B) 2, 4, 5 C) 2, 3, 4<br>D) 3, 4, 5 E) 1, 4, 5 | **6.** *"Şokolad"* sözünün fonetik təhlili ilə bağlı doğru fikirləri müəyyən edin.<br>1. Tərkibində dodaqlanan sait yoxdur.<br>2. İki samitin qarşılığı yoxdur.<br>3. Dodaqlanan sait qalın və açıqdır.<br>4. Sözdə *d* samitinin kar qarşılığı işlənmişdir.<br>5. Tərkibində kar qarşılığı olmayan samit var.<br>A) 1, 2, 3 B) 2, 4, 5 C) 2, 3, 4<br>D) 3, 4, 5 E) 1, 4, 5 |
| 3. Sınaq imtahanı №14 (Ümumi sınaq) (səhifə 81) | **1.** Vurğuya görə məntiqi ardıcıllığı tamamlayan bəndi müəyyən edin.<br>1. status 2. stansiya<br>3. sinus 4. ...<br>A) sxematik B) sistem C) simvol<br>D) ssenari E) simmetrik | **1.** Deyiliş və yazılış baxımından məntiqi ardıcıllığı ***tamamlamayan*** bəndi müəyyən edin.<br>1. status 2. stansiya<br>3. sinus 4. ...<br>A) sxematik B) simvol C) saxta<br>D) ssenari E) simmetrik |
| 4. Sınaq imtahanı №15 (Ümumi sınaq) (səhifə 88) | **10.** *"Sənətkarlıq qabiliyyəti"* birləşməsindəki asılı tərəfin fonetik təhlili ilə bağlı ***səhv*** fikri müəyyən edin.<br>A) Samitlərdən dördü cingiltili, üçü kardır.<br>B) Sözdə iki *[r]* samiti işlənmişdir.<br>C) Vurğu son hecaya düşür.<br>D) Söz kar samitlə başlayır, kar samitlə bitir.<br>E) Sözdə qalın və ya incə saitlər bir-birini izləməyib. | **10.** *"Sənətkarlıq qabiliyyəti"* birləşməsindəki asılı tərəfin fonetik təhlili ilə bağlı ***səhv*** fikri müəyyən edin.<br>A) Samitlərdən dördü cingiltili, üçü kardır.<br>B) Sözdə iki *[r]* samiti işlənmişdir.<br>C) Kökün ilk şəkilçisinin deyilişi yazılışından fərqlənmir.<br>D) Söz kar samitlə başlayır, kar samitlə bitir.<br>E) Sözdə qalın və ya incə saitlər bir-birini izləməyib. |
| 5. Sınaq imtahanı №16 (Ümumi sınaq) (səhifə 93) | **1.** Vurğuya görə məntiqi ardıcıllığı müəyyən edin.<br>1. *kabel* 2. *kampaniya*<br>3. *kapilyar* 4. ...<br>A) kateqoriya B) karikatur C) kəhkəşan<br>D) kibernetika E) komendant | **1.** Deyiliş və yazılış baxımından məntiqi ardıcıllığı ***tamamlamayan*** sözü müəyyən edin.<br>1. *kabel* 2. *kampaniya*<br>3. *kapilyar* 4. ...<br>A) kateqoriya B) komendant C) kəlbətin<br>D) kibernetika E) karikatur |